# "Dənizçi olasan, yalanın olmasın?.."

## 31 ildir dünyanı gəzən Rüstəm Əkbərov: "Hər dəfə mən səfərdən qayıdanda, yoldaşım sanki yeni evlənirmişik kimi yanaşırdı"



**Çoxumuz səhər tezdən durub işə gedir, axşam isə işimizi bitirib evə dönürük. Amma bu iş rejimi bəzi sahələrə aid deyil. Eləcə də dənizçilərə. Onlar bir neçə ay dənizdə, bir neçə ay isə evlərində olurlar. Bir çoxlarımız üçün çətin gələn bu işin asan və maraqlı tərəfləri də az deyilmiş. Məsələn, dünyanı gəzmək, fərqli ölkələr, mədəniyyətlərlə tanış olmaq və s. Müsahibim Rüstəm Əkbərovla söhbət zamanı bu qənaətə gəldim.**

1983-cü ildə Bakı Dəniz Yolları məktəbini bitirən müsahibim 84-cü ildən gəmidə mexanik işləməyə başlayıb. 31 il ərzində peşəsində yavaş-yavaş irəliləyən R.Əkbərov hazırda gəmidə baş mexanik olaraq çalışır. Onunla sevdiyi sahə, işinin maraqlı və çətin tərəfləri və s. mövzularda söhbət apardıq.

**- İşə ilk olaraq harada başlamısız və indi harada çalışırsız?**

- İşə ilk olaraq 1984-cü ildə Xəzər Dəniz Gəmiçiliyi İdarəsində başlamışam. 2002-ci ilə kimi orda çalışdım. Növbəti 10 ili Türkiyədə, ondan sonrakı bir ili Nigeriyada işlədim. Son beş ildir ki, Dubayda işləyirəm.

**- Dənizdə çalışmağın hansı özəllikləri var?**

- Hər bir işin mənə görə özəllikləri var. Səhər tezdən işə gedib, axşam qayıdanlara baxanda mənə bir az çətin gəlir. Qışda səhər tezdən yuxudan oyanmağı, qarlı havada işə getməyi təsəvvürümə gətirə bilmirəm. Mənim üçün gəmidə işləmək daha rahat və sərfəlidir. Ona görə ki, işim də ordadır, yeməyim də, yatmağım da. Müqavilə ilə gedib xarici ölkələri də gəzirəm. Yəni iş görməklə yanaşı, maraqlı tərəfləri də var.

**- Deməli, işinizin bizə çətin gələn, amma sizə maraqlı olan tərəfləri çoxdur?**

- Çətin tərəfləri həddindən artıq çoxdur. Güclü küləkli havalarda belə işləyirik. Biz buna məcburuq. Çünki əgər gəmi səfərə çıxıbsa, bu səfər tamamlanmalıdır.

**- Hər kəs gəmidə işləyə bilərmi?**

- İxtisasımız üzrə təhsil alanda işimizlə tanışlığımız praktika olur. Praktikadan sonra uşaqların bir neçəsi ixtisasdan imtina etdi. Dənizdə işə başlayanlardan da məzuniyyətə çıxandan sonra bir daha işə qayıtmayanlar olurdu. Yəni burada da seçim gedir. 100 nəfərdən 10-15-i bu ixtisasdan uzaqlaşır. Dənizin havasına dözə bilməyənlər çox olur. Dəniz xəstəliyi olanları küləkli havada xəstəlik tutur, dözə bilmirlər.

**- Bu xəstəlik hansı əlamətlərlə özünü göstərir?**

- Dəniz xəstəliyi hər bir insanda ola bilər. Öyüyür, qusur, narahat olur, davam gətirə bilmirlər. Təsəvvür edin ki, ayaq üstə dura bilmirlər. Küləkli havada gəmi yellənir. Bu cür hava bəzən bir yox, bir neçə gün çəkə bilir. Hətta daha çox da davam edə bilər. Bu xəstəliyi olanlar gəmidə tez-tez qusurlar, yemək yeyə bilmirlər. Amma bu xəstəlik hər kəsdə də olmur. Məsələn, burada çalışan qadınlarımız da çox olur. Sovetin vaxtında Şövkət Səlimova deyilən bir qadın kapitan olub. Hazırda hələ ki bu sahədə xanım kapitan yoxdur, gəmidə işləyən aşpaz xanımlar var. Türkiyədə isə gəmiçilik məktəbində bu gün xeyli sayda qızlar təhsil alır və işləyənləri də var.

**- Bəs bizdə qızlar bu sahəyə niyə getmir?**

- Bu bəzən mentalitetimizdən irəli gəlir. Valideynlər qızlarının bu ixtisas üzrə getməsinə razı olmurlar. Bir tərəfdən də qadınlarımız buna dözə bilməzlər.



**- Türk qadınları dözürlərsə, bizimkilər niyə dözməsin ki?**

- Şövkət Səlimovanı misal gətirdim ki, bu sahədə xanımlarımız olub. Amma yəqin indi bu sahəyə getmək istəyən yoxdur. Yəqin ki, valideynlər də icazə verməzlər deyə bu sahəni seçmirlər.

**- 31 ildir gəmidə işləyirsiniz. Bu müddət ərzində dənizçilikdə nələr dəyişib?**

- Biz hələ təhsil alan zaman müəllimlərimizdən biri - Tahir Şabanov demişdi ki, siz məktəbi qurtaranda gəmilər o qədər avtomatlaşdırılacaq ki, mexaniklər daha maşın şöbəsində deyil, "Kapitan körpüsü"ndə olacaqlar. Biz inanmırdıq. Deyirdik, necə ola bilər ki, maşın aşağıda işləyəcək, mexanik kapitanın yanında oturacaq? Amma indi işlədiyim gəmidə elədir. Mexaniklə kapitan yuxarıda bərabər otururlar. Gəmilər avtomatlaşdırılıb. Əvvəllər gəmidə işləyən adamların sayı çox idi. Amma indi avtomatlaşma getdiyi üçün adamların da sayı azalır.

**- Altı ay evdə, altı ay dənizdə olursunuz deyəsən. Bəs evdən şikayətlər gəlmir?..**

- Altı aylıq rejim əvvəlki işimdəydi. O vaxt evdən şikayətlər çox olurdu. Həm evdəkilər şikayət edirdi, həm də bizim üçün çox çətin idi. Evdən, ailədən, qohum-əqrəbadan uzaq düşürdük. Düzdür, iş zamanı adamın başı qarışır. Bir ölkədən o biri ölkəyə gedirdik, başımız qarışırdı. Amma boş olanda adam evi fikirləşir. İndi isə 3 ay dənizdə, 3 ay evdə qalırıq. Nigeriya ilə bir illik müqavilə bağlamışdım. Həmin müddətdə iki ay işləyib, bir ay evdə olurduq.

**- Ailənizdən uzaq düşdüyünüz üçün heç bu işdən ayrılmaq istəmisinizmi?**

- İnsan öz işini sevərək çalışmalıdır. Biz dənizdə işə başlayanda "evlənəndən sonra bu işdən çıxacağıq" demişdik. Bu hamıda belə olur. Amma hələ o sözü deyib, bu işdən ayrılanları görməmişəm. Çıxanlar da sonradan geri qayıdıblar. İnsan öz işini sevməli və çalışdığı sahənin peşəkarı olmalıdır. Əgər işçi onun işinə tələbatın olduğunu hiss edirsə, öz işindən həzz alır və ondan möhkəm yapışır. Bizim işimiz də elədir. Mən artıq özümü tanıtmışam və hansı kollektivə düşürəmsə, işimi sevə-sevə görürəm.

**- Bəs işinizlə bağlı qohumların iradları olurmu?**

- Hələ evləndiyim vaxtlarda qayınanam demişdi ki, sən ömür boyu dənizdə işləyəcəksən? Onlar dənizə uzaq olduqları üçün bu iş onlara o qədər də yaxın deyildi. Mənim işim onlar üçün qəribə gəlirdi. Amma sonradan öyrəşdilər. İşimdən ayrılmağı heç vaxt fikirləşməmişəm. Hətta mənə kənardan yaxşı vəzifələr təklif olunub. Mən dənizdən kənarda işləmək istəməmişəm. Birincisi, dənizdə maaş çoxdur. İkincisi də öz işimə o qədər öyrəşmişəm ki, bu biri iş rejimləri mənə çətin gəlir.

**- Bəs təhlükəli məqamlar çox olur?**

- Təhlükə də olur. Bəzən dənizin ortasında gəmidə yanğın baş verir. Bir dəfə elə bir yanğın olmuşdu. Amma bizdə təhlükəli hallara qarşı önləyici tədbirlər çoxdu. Yanğını söndürmək üçün bir neçə üsullar var. Yəni, təhlükə hər bir işdə var. Bizim təhlükə dənizlə bağlıdır, başqa bir işdəki təhlükə də həmin sahə ilə bağlıdır. İşi seçərkən təhlükəsizlik məsələsinə əsasən seçmək düzgün deyil. Bizim işə başlamamışdan əvvəl təhlükəsizlik texnikalarını öyrədirlər. Təhlükəsizlik texnikasından imtahan da vermişik. Bütün işlərdə təhlükə var, sadəcə olaraq işçi onları önləmək üçün biliklərə sahib olmalıdır.

**- Səfərlərdən xatirə olaraq evə nə gətirirsiz?**

- Xarici ölkələrin görməli yerlərini gəzib, hər yerdən bir suvenir gətirməyə çalışıram. Əvvəllər hər şəhərdən bir boşqab gətirirdim. Misirə gedəndə evə suvenir piramidalar gətirmişəm. İtaliyadan Piza qülləsinin suvenirini, Fransadan Eyfelin maketini gətirmişəm. Bizim işdə optimist olmaq, gəzib-görmək və gördüyün şeylərdən həzz almaq lazımdır. Tanzaniyada biz 15 gün qaldıq. Orada bizə 30 dollara Safari turu təklif etdilər. Yoldaşlardan heç kim getmək istəmədi. Ona görə gedə bilmədim. Amma çox istəyirdim.

**- Bəs övladlarınızdan sizin işinizi seçmək istəyən oldumu?**

- Oğlum istəyirdi, amma mən qoymadım. Mən dənizin yaxşı cəhətlərini də görmüşəm, pis tərəflərini də. Oğluma həmişə deyirəm ki, yaxşı kişi evində yatar. Ona görə onun dənizdə işləməyinə razı olmadım, dedim evində yatsın. Mənim atam dənizdə kapitan olub, qardaşlarım da dənizçi olublar. Bizdə bu iş ailəlikcə gəlir. Amma mən oğlumun bu sahəyə gəlməsini istəmədim.

**- Belə çıxır ki, qızlarınız istəsəydi, ümumiyyətlə, qoymazdınız?**

- Oğlana razı olmamışamsa, deməli qıza heç razı olmaram.

**- Getdiyiniz ölkələrdən hansı sizə daha rahatdır?**

- İtaliya, İspaniya, Fransanı deyə bilərəm. Ən çox sevdiyim İspaniya, ondan sonra İtaliyadır. İspaniyanın çox şəhərlərində olmuşam. Ora mənim üçün çox maraqlıdır və insanları da çox yaxşıdır. Onlar qarabəniz olduqları üçün bizə daha yaxındırlar. İtalyanlar da elədir. Əgər onlardan bir yol soruşsan, çalışacaqlar ki, özləri səni həmin yerə aparıb çatdırsın. Nigeriyalılar çox aqressiv adamdırlar. Amma onlarla yaxşı davrandıqda xoş münasibət görürsən.

**- Allah rəhmət etsin, xanımınız indi həyatda yoxdu. İş rejiminizlə bağlı xanımınızın etirazları olurdumu?**

- Əvvəllər iradları çox olurdu. Xanımım Qax rayonundan idi. Onlara dəniz yaxın deyildi. Mənim işim onlara yad idi. Həmişə deyirdi ki, nə qədər işləyəcəksən, dənizdən çıx. Hətta mənə kənardan iş təklifi gələndə, razılaşmağım üçün əlindən gələni edirdi. Amma işə olan sevgimi görəndən sonra o da qəbul etdi. Dənizçi olmağın bəzi cəhətləri evlilik həyatı üçün gözəldir, bəziləri isə yox. Məsələn, mən dənizdə işləyib bir müddət ara verəndən sonra evə qayıdanda, bir-birimizi daha çox sevirdik. 22 il bir yerdə yaşadıq, hər dəfə mən səfərdən qayıdanda sanki yeni evlənirmişik kimi yanaşırdı. Bir-birimizdən bezməmişdik. Başqa evlərdə gördüyüm "dır-dır" bizim evdə olmurdu. Əgər 3 ay evdə olurdumsa, 3 ayın sonuna yaxın "dır-dır" başlamaq istəyirdi ki, mən səfərə yola düşürdüm. Xəzər Dəniz Gəmiçiliyi İdarəsində işləyəndə həm bizim pulla maaş verirdilər, həm də dollarla gəmidə pul alırdıq. Maaşımı burada xanımım alırdı. Bu tərəfdən də xanımın etirazı olmurdu.

**- 31 ildə neçə ölkədə olmusunuz?**

- 30-dan çox olar.

**- Dənizçilər 57 yaşında pensiyaya çıxır. Sizin isə 52 yaşınız var. Bəs 57-dən sonra nə edəcəksiniz?**

- (Gülür) Ondan sonra da istirahət edəcəm. Düzünü deyim, 57-dən sonrasını hələ ki fikirləşməmişəm. Amma kənarda bizim üçün işlər çoxdur. İşimizlə əlaqədar olaraq Dənizçilik Akademiyasının istər administrasiyasında, istərsə də limanlarda, gəmi təmiri zavodlarında bizə uyğun iş çoxdur.

**- Dənizdən ayrılandan sonra bu illərin xatirələrini nəvələrinizə danışacaqsız. Yəqin ki, onlara danışılası xatirələr çox olar...**

- Onlara danışacaq xatirələrim o qədərdir ki. Şəkillərim, gətirdiyim hədiyyələrin hər biri



bir xatirədir. Hərəsindən bir hekayə anlada bilərəm. Tanzaniyadan akulanın dişləri üstündə olan çənə sümüyünü gətirmişdim. Nəinki uşaqlar, hətta böyüklər üçün də xatirələr çoxdur.

**- 31 illik səfərlər zamanı evdəkilərin xəbəri olmayan hansı hadisələr baş verib?**

- Yaxşı və pis, o cür xatirələr çoxdur. Evdəkilərə hər şeyi danışmaq olmaz ki... Doğru söz birinin xətrinə dəyəcəksə, orada yalan danışmaq da olar. Dənizçi olasan, o qədər xarici ölkələri gəzəsən, "hər hansı bir yalanım yoxdu" - desəm, yalan olar.

**Aygün Asimqızı**

ELAN

Bakı şəhəri Yasamal rayonu Mətbuat prospekti bina 25, mənzil 38 üçün verilmiş Çıxarış itdiyi üçün etibarsız sayılır.

"N" saylı hərbi hissə tərəfindən Cəfərov Qalib İmran oğlunun adına verilmiş 018070 saylı 16.04.2000-ci il tarixli "Müharibə veteranı" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.